

# Muğanda taxılçılığın inkişafı sürətlənir

***Azərbaycan dövlətinin uğurlu, düşünülmüş aqrar siyasəti öz real bəhrəsini verməkdədir. Ölkəmizin, demək olar ki, bütün bölgələrində müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükündə ciddi artım müşahidə olunur.***

*Taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur. Yəni, bu, onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə üzrə keçirilən müşavirədə qeyd olunub ki, ölkəmizdə sənaye, enerji sahələri ilə yanaşı, qeyri-neft sənayesində, xüsusilə aqrar sektorda da rekord göstəricilər əldə edilir. Əlamətdar haldır ki, kənd təsərrüfatı məhsulları bu ilin 6 ayında 13 faiz artmışdır. Ən çox artım bitkiçilik sahəsində müşahidə olunmuşdur. Belə ki, burada artım 25 faiz artmışdır.

Dövlətimizin başçısı aqrar sahədə inkişafı izah edərkən demişdir ki, ölkədə bu sahəyə qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Prezident əmin olduğunu bildirmişdir ki, Azərbaycanda gələcək illərdə də kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək, beləliklə, bu amil ölkəmizdə həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.

Müşavirədə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirmişdir ki, başçılıq etdiyi qurumun əsas vəzifəsi taxılçılıqla bağlı olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən tədbirlər nəticəsində bu il ölkədə taxıl biçini 20 gün tez başa çatıb. Ötən illə müqayisədə hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib.

Aqrar sektorda baş verən müsbət proseslər böyük iqtisadi potensialı olan Muğan bölgəsində də özünü bariz şəkildə göstərir. Bölgədə taxılçılıq fermerlərinin builki uğurları xüsusilə diqqətəlayiqdir. Bunu nəzərə alaraq oxuculara bu il Muğanın bir sıra rayonlarında taxılçılığın inkişaf əldə olunan parlaq uğurlar, bu qələbələri şərtləndirən əsas səbəblər barədə söz açmaq istəyirik.



Muğanın ən böyük rayonlarından olan Sabirabadda bu il son illər ərzində ilk dəfə olaraq taxıl sahələrindən 100 min ton məhsul toplanmışdır. Sevindirici haldır ki, məhsulun artımı ilk növbədə sahələrin məhsuldarlığının artırılması hesabına mümkün olmuşdur. Qeyd edək ki, ötən il sabirabadlı taxılçılar 24 min 645 hektar sahədə taxıl becəriblər və 97 min 93 ton məhsul yığıblar.

Sabirabad Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Heydər Yaqubov bildirdi ki, rayonda ötən ilin payızında cari ilin məhsulu üçün 25 min 136 hektar sahədə taxıl əkilib ki, bunun da 9 min 600 hektarını arpa, 15 min 536 hektarını isə buğda sahələri təşkil edib.

Biçin kampaniyasına mütəşəkkil başlayan məhsul istehsalçıları qısa müddətdə zəmilərdən 100 min 100 ton məhsul toplayaraq işi uğurla başa çatdırıblar. Yığılmış məhsulun 63 min 912 tonu buğda, 36 min 196 tonu isə arpa olub. Biçin aparılan hər hektardan 39 sentner məhsul götürülüb ki, bu da ötən ildəkindən 1 sentner çoxdur. Ayrı-ayrı fermer təsərrüfatlarında məhsuldarlıq ümumirayon göstəricisindən xeyli yüksək olub.

H.Yaqubov bizimlə söhbət zamanı bu mövsümdə rayonda ən çox məhsul istehsal edən fermerlərin adlarını fəxrlə çəkdi. Təcrübəli fermer Mirhabil Səmidovun adını birinci çəkdi. Dedi ki, onun başçılıq etdiyi bu fermer təsərrüfatı rayonda ən çox taxıl məhsulu toplayıb. Belə ki, fermer bu il ötən il 150 hektar sahədə taxıl əkib və bu il hər hektardan 42 sentner məhsul götürüb.

Fermer Yaşar Nağıyev də becərdiyi 99 hektar sahənin hər hektarından orta hesabla 42 sentner məhsul əldə edib. Mirhəmid Həmidov, Dədəkişi Dövlətov kimi qabaqcıl taxılçılıq fermerləri də bu yüksək məhsuldarlığa nail olublar.

H.Yaqubov hesab edir ki, rayonda taxılçılığın inkişafı dövlətimizin bu sahəyə göstərdiyi diqqət və qayğı sayəsində mümkün olub. Məsələn, təkcə bu il rayonda 12312 hektar buğda sahəsinə 90 manat hesabı ilə 1108121 manat veriləcək. Belə təşviqedici tədbirlər fermerlərin taxılçılıq sahəsinə marağını artırır.



Mirhabil Səmidovdan builki uğurları barədə söz açmasını xahiş edəndə həvəslə razı oldu. Bildirdi ki, ölkəmizin bütün fermerlərinin uğurları kimi, onun da əldə etdiyi müsbət nəticələr, ilk növbədə Azərbaycan Prezidenti İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan dövlətinin bir an azalmayan diqqət və qayğısı sayəsində mümkün olub. Fermer sonra bunları dedi:

– Mən şəxsən bundan sonra da böyük həvəslə çalışacağam ki, möhtərəm dövlət başçısının bizə göstərdiyi qayğıya əməli işlərlə cavab verim. Məsələn, gələn il taxıl sahələrindən orta hesabla azı 45 sentner məhsul götürməyi planlaşdırırıq.

Ölkəmizin ən böyük taxılçılıq rayonlarından biri Saatlı rayonudur. Bu ilin məhsulu üçün 2018-ci ilin payızında 19044 hektar sahədə buğda, 5822 hektar sahədə isə arpa olmaqla, ümumilikdə 24866 hektar sahədə taxıl bitkisi əkilmişdir. Builki taxıl biçini uğurla başa çatdırılmışdır. Göstəricilər də fərəhlidir. Belə ki, 19044 hektar sahədən 42,9 sentner olmaqla 81698,76 ton buğda məhsulu, 5822 hektar sahədən 36,2 sentner olmaqla 21075,64 ton arpa məhsulu, ümumilikdə isə 24866 hektar sahədən 41,3 sentner olmaqla 102774,4 ton taxıl məhsulu əldə olunmuşdur.

Saatlı rayonunun fermerləri hesab edirlər ki, builki biçin kampaniyasının tez və itkisiz başa çatdırılmasında rayon mexanizatorlarının böyük əməyi olmuşdur. Taxıl biçininə ümumilikdə, 60 kombayn cəlb olunmuşdur ki, onların düzgün dislokasiyası nəticəsində taxıl biçini müvəffəqiyyətlə başa çatmışdır.



Saatlı Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən dedilər ki, bu il rayonda taxıl sahələrinin məhsuladarlığı yüksəlib. Rayon üzrə orta məhsuldarlıq 40 sentnerdən çoxdur. Elə taxıl istehsalçıları vardır ki, onun aqrotexniki qaydalara düzgün əməl etməklə daha yüksək göstəricilərə nail ola biliblər.

Təcrübəli fermer Hikmət Zeynalov ötən il 155.5 hektar taxıl sahəsində payızlıq buğda əkmişdi. Bu il həmin sahədən 671 ton məhsul əldə edilmişdir. Orta məhsuldarlıq 45 sentnerə yaxın olmuşdur.

Fermer Hikmət Zeynalov qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla həyata keçirilməsi son illər bölgələrdə aqrar sahənin sürətli inkişafı üçün etibarlı zəmin yaratmışdır. Onun fikrincə, Saatlı rayonun təsərrüfatlarında icra olunan meliorativ tədbirlər rayonda digər sahələr kimi taxılçılığın inkişafına xüsusilə müsbət təsir göstərmişdir.

Bu il İmişlidə də taxıl yığımı kampaniyası uğurla təşkil olunmuşdur. Rayon taxılçıları ötən ilin payızında 19 min 37 hektar taxıl əkiblər, bunun da 6 min 322 hektarını arpa, 12 min 715 hektarını isə buğda sahələri təşkil edib. Biçin aparılmış arpa sahələrindən 21 min 621 ton, buğda zəmilərindən isə 49 min 200 ton məhsul götürülüb. Arpa sahələrinin hər hektarının məhsuldarlığı 34,2 sentner, buğda sahələrində isə 38,7 sentner olub. Rayon üzrə hər hektar taxıl sahəsinin məhsuldarlığı 37,5 sentner təşkil edib ki, bu da ötən ildəkindən 1,3 sentner çoxdur. Qeyd edək ki, imişlili əkinçilər bu il ötən ildəkindən 2451 ton çox məhsul istehsal ediblər.

Son illər Hacıqabul rayonunda taxılçılıq istiqamətində nəzərəçarpan uğurlar əldə olunmuşdur. Rayonda cari ilin məhsulu üçün əkilmiş 36933 hektar sahədə taxıl məhsulu əkilərək becərilmişdir. Taxıl biçinini tez və itkisiz başa çatdıran hacıqabullu taxılçılar bu il ötən ildəkindən xeyli artıq buğda və arpa məhsulu toplaya biliblər.

Əlamətdar haldır ki, rayonda toxumçuluğun inkişafına xüsusi diqqət yetirilir. Bu il rayon üzrə 4300 ton yüksək reproduksiyalı taxıl toxumu istehsal olunmuşdur ki, bu, əvvəlki illərdə olduğundan xeyli çoxdur. Bununla da rayon fermerləri növbəti ilin məhsulu üçün toxuma olan tələbatı demək olar ki, tam yerinə yetiriblər, üstəlik, digər rayonlara toxum təminatında kömək göstərilir.

Rayonda hazırda yazlıq əkinlər tam başa çatdırılmışdır. 5285 hektar sahədə əkilmiş yazlıq bitkilərdən 788,7 hektar dənli və dənli-paxlalı 573,8 hektar texniki, 1411 hektar kartof, tərəvəz və bostan, 2485 hektar isə yem bitkiləri təşkil etmişdir.

Təqdirəlayiq haldır ki, Hacıqabulda taxılçılıqda pivot və çiləmə kimi mütərəqqi suvarma sistemlərindən geniş istifadə edilməyə başlanmışdır. Məqsəd sahələrin məhsuldarlığının artırılmasına nail olmaqdır.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***